# Ailə ənənələrinin təbliğinin zəruriliyi

**Fəridə Səmədzadə**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** feridesemedzade@box.az

**Rəyçilər:** p.ü.e.d., prof.A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** məktəbəqədər yaşlı uşaq, ənənə, ailə ənənələri, hörmət, hörmət hissi, hörmət hissinin formalaşdırılması

**Ключевые слова:** ребенок дошкольного возраста, традиция, семейная традиция, уважение, чувство уважения, формирование чувства уважения

**Key words:** child of preschool age, tradition, family tradition, respect, respect, a sense of respect

Hər bir xalqın ana dilinə, mədəniyyətinə, adət ənənələrinə olan bağlılığı onun daimi mövcudluğunun təminatıdır. Bu dəyərləri qorumaq və sonrakı nəsillərə aşılamaq vəzifəsi də ilk öncə ailənin üzərinə düşür. XXI əsrin ən başlıca problemlərində biri də məhz sosial-mənəvi mühitin tamlığının qorunmasıdır. Bu səbəblə ailə, istər vətəndaş, istər hərtərəfli şəxsiyyət, istərsə də cəmiyyət üçün vacibliyi artırmaqda olan ümumbəşəri dəyər, mədəni irsin, əxlaqi norma və qaydalarının ötürücüsü rolunu oynayır. Mütəxəssisilər qeyd edir ki, XXI əsr insanın ailəyə olan tələbatı azalmışdır, o sivilizasiyanın təsiri altında birgəyaşayışın liberal formalarına doğru təkamül edir. Lakin bir çox pedaqoji tədqiqatlar göstərir ki, bu heç də belə deyildir insan üçün ailənin, uşaqların, evin, maddi rifah halının, asudə vaxtın dəyərləri çox-çox artmışdır. Bu qlobal problem dünyanın diqqət mərkəzindədir və bunun həlli ilə bağlı müxtəlif müzakirələr aparılır, çağırışlar edilir. Dünyanın bir sıra nüfuzlu təşkilatı, o cümlədən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin nazirlərin "İslam Əməkdaşlıq Təşkilatı dövlətlərində evlilik, ailə institutu və bu dəyərlərin qorunması", "İslam dünyasında sosial siyasət və ailə: tələblər və ehtiyaclar" mövzusunda keçirilən seminar və konfranslar bu məsələlərin dünya ölkələri üçün nə dərəcədə aktual olduğunu bir daha göstərdi. O cümlədən ölkəmizdə də bu mövzuda keçirilən çoxsaylı tədbirlərin olması, dövlət tərəfindən göstərilən maddi və mənəvi dəstəyin, lazımi qayğının bariz nümunəsidir. Bu tədbirlərin keçirilməsində ailə ənənələrimizin ləyaqətlə davam etdirilməsi üçün hər cür imkan və şəraiti bir daha gözlər önünə sərməkdədir.

Ailə cəmiyyətin təməlidir. "Sağlam ailə sağlam cəmiyyətdir" devizi müasir dövrdə belə aktuallığını qoruyur və hər zaman üçün öz təsdiqini tapmaqda davam edir. Dünyada "Sağam ailə" modelinə nümunə olaraq Azərbaycan ailəsini heç sübhəsiz ki, ön sıralarda göstərə bilərik. Ölkəmizdə hələ də ailənin müqəddəs hesab edilməsi, onun dəyərlərinə, adət ənənələrinə hörmətlə yanaşılması bu qurumun müasir dövrə sağlam şəkildə gəlib çatmasına yardımçı olmuşdur. Bu gün ölkəmizdən 2 milyondan artıq ailə var. Artıq 10 milyondan çox olan Azərbaycan xalqı üçün bu rəqəm olduqca ürək açan göstəricidir. Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, dəyərlərinə öz mədəniyyətinə bağlılığından asılıdır. Qürur verici haldır ki, bu gün dünyada Azərbaycan ailəsi deyə bir reallıq vardır ki, bu da onun sağlam təməllərinin olmasını göstərir. Bu gün belə ölkəmizdə yüzlərlə, minlərlə insan qurduqları ailələrin brillyant, qızıl, gümüş yubileylərini keçirirlərsə, bu o deməkdir ki,

Azərbaycanda ailə modeli qorunur və nəsildən – nəslə ötürülür. Ölkəmizdə xüsusi fərqlənən, nümunəvi və uzunömürlüyü ilə seçilən ailələrimiz çoxdur. Həmin ailələrin təcrübəsi hamıya, xüsusən də gənclərə nümunədir. Bu da bizə nəsildən nəslə ötürülərək gələn mədəni irsimiz hesab edilən milli mentalitetin sayəsindədir.

Azərbaycan xalqının çox gözəl və zəngin ailə ənənələri var. Həmin ailə ənənələri saflıq və sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük, valideynə, yaşlıya hörmət, tolerantlıq kimi zəngin və çoxşaxəli xüsusiyyətlərə malikdir. Sağlam ailə mühiti insan həyatının ilk xoşbəxtlik açarı hesab etmək olar. İnsan dünyaya, cəmiyyətə baxışının formalaşması məhz bu düşdüyü ilk, kiçik mühitdən başlayır.

Pedaqoji, psixoloji, ədəbiyyatlarda qeyd olunduğu kimi insan şəxsiyyətinin formalaşmasında ilk beş yaş dövrü olduqca böyük əhəmiyyətə malikdir. Məktəbəqədər yaşlı uşaqların bu yaş dövrünün xüsusən ailə mühitində keçməsi bizə ailə üzərinə düşən vəzifələrin nə qədər vacib və zəruri olduğunu bir daha sübut edir. Bu baxımdan uşaq tərbiyəsinə sadəcə evdə böyüyən bir fərdin tərbiyəsi kimi baxmaq yox onun cəmiyyətin parçasına çevriləcək bir şəxsiyyət kimi baxmaq lazımdır. Bu baxımdan ailə də digər müəssisələr qədər uşaqların hərtərəfli inkişafı üçün lazımı səyi göstərməlidir. Ailənin hər bir üzvü üzərinə düşən vəzifəni laiqincə həyata keçirməlidir. Necə ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki sağlam ailə olmasa, cəmiyyətin uğurlu inkişafından danışmaq məsasız olar.

Yuxarıda qeyd etdiyimiz kimi uşaq tərbiyəsində ailənin rolu olduqca mühümdir. Bununla yanaşı ailə daxilində üvzlərin bir birinə olan münasibətinin düzgün bir sistemlə bağlı olması da zəruridir. Ailə daxilində münasibət qeyri sabit olarsa, bu zaman insanlarında cəmiyyətdəki mövqeyi qeyri sabit olacaqdır. Bu minvanın pozulması, həm ailədə, həm də cəmiyyətdə bir sıra çaşğınlıqlar səbəb ola bilər. Özümüzə məxsus ailə ənənələrinin, milli-mənəvi dəyərlərin sonrakı nəsillərə aşılanması, onlara mütəmadi təbliğ olunması olduqca zəruri haldır və bu istiqamətdə tədqiqatların aparılması, mövcud olan problemlərin işıqlandırılması ilə bu çətinliklərin aradan qaldırılmasıyla ailə institutunun daimi inkişafına nail olmaq olar.

Lakin apardığımız tədqiqatların nəticəsi zamanı bir sıra ailə institutlarının xüsusən son on il ərzində bir sıra problemlərlə qarşılaşdığını müşahidə etdik. Dünyada o cümlədən ölkəmizdə ailələrin qarşılaşdığı iqtisadi, maddi və mənəvi çətinliklər insanların ailəyə olan inancının azalmasına və ailələrin dağılmasına gətirib çıxarır. Sevindirici hal orasındadır ki, bu vəziyyət ölkəmizdə hələ kütləvi xarakter daşımır. Dövlətin bu məsələni daima nəzarət altında saxlaması və lazımi təşkilatların və qurumların mütəmadi olaraq istər iri şəhərlərdə istərsə də regionlarla maarifləndirmə məqsədi ilə həyata keçirdiyi layihələr bu məsələyə olan qayğının nümunəsidir.

Ölkəmizdə ailə institutunun möhkəmləndirilməsi məqsədi ilə ildə-ilə qanunvericilik bazasının daha da güclənməsi ilə yanaşı, mövcud qanunların düzgün dərk edilməsi sahəsində ardıcıl və sistemli maarifləndirici işlərin aparılması vacibdir. Bunun üçün məktəbəqədər müəssisələrdə, məktəblərdə, ali təhsil müəssisələrində, ailələrdə, hərbi hissələrdə ailə münasibətlərinin formalaşması, yeni keyfiyyətlərin müsbət və mənfi təsiri haqqında seminarlar keçirilməsi, yaşlı nəsillə gənc nəslin dialoqunu təşkil edilməsi olduqca vacibdir. Dövlət ailə siyasətinin dəstəklənməsi ilə bağlı 7 aprel 2017-ci idən etibarən ölkənin müxtəlif regionlarında ailə institutunun təbliği, milli-mənəvi dəyərlərin gənc nəslə aşılanması, eləcə də

gənclərin xüsusilə də gənc qızların və qadınların cəmiyyətdə fəallığının və iştirakçılığının artırılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bələdiyyə orqanları ilə birgə "Ailə Akademiyası" layihəsinə start verilmişdir və hələ də uğurla həyata keçirilməyə davam edir.

**Məqalənin aktuallığı.** Ailə ənənələrinin qorunması və onun sonrakı nəsillərə ötürülməsinə dair məlumatların məktəbəqədər müəssisələr, ailə, məktəb və ali məktəblər üçün istifadə oluna biləcək ədəbiyyatlarda az rast gəlinir. Bu baxımdan bu mövzunun pedaqoji və metodik ədəbiyyatda təhlili baxımından məqalə aktual hesab edilməlidir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ailədə və cəmiyyətdə ailə ənənələrinin qorunun saxlanılmasının zəruriliyinin nəzəri problemləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təklif və nəticələr məktəbəqədər yaşlı uşaqlın tərbiyəsində ailədə, məktəbəqədər müəssisələrdə və digər qurumlarda nəzərə alına bilər.

## Ədəbiyyat

1. Ə.Ə. Əlzadə, A.N. Abbasov. Ailə: IX sinif üçün dərslik. Bakı: Maarif, 1989.
2. А.А. Ализаде, А.Н. Аббасов. Семья: Учебник для 9 класса. Баку: Маариф, 1991.
3. Ə.Ə. Əlzadə, A.N. Abbasov. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1989.
4. A.N. Abbasov. Milli əxlaq və ailə etikası: universtitetlər və kolleclər üçün dərslik. Bakı: Mütərcim, 2015.
5. V.A. Suxomlinski. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.

**Ф. Самедзаде**

## Необходимость пропаганды семейных традиций

## Резюме

Семья — это основа общества, а приверженность каждого народа своему родному языку, культуре и традициям — залог его постоянного существования. Защита этих ценностей и привитие для последующих поколений является первой обязанностью семьи. Одной из главных проблем XXI века является сохранение целостности сайга-нравственной среды.

**F. Samedzade**

## The necessity of propagation of family traditions

## Summary

Family is the foundation of society. The commitment of every nation to its mother tongue, culture and traditions is the guarantee of its permanent existence. The protection of these values and inculcation for subsequent generations is the first of the family's responsibilities. One of the major problems of the twenty-first century is the preservation of the integrity of the saiga-moral environment.

**Redaksiyaya daxil olub:** 18.04.2019